Sumqayıt Şəhər Səməd Vurğun adına Mərkəzi Kitabxana

Əhməd Cəmil - 100

Zərif duyğular şairi



Biblioqrafik göstərici

Sumqayıt - 2013

M Ü N D Ə R İ C A T :

I. ƏHMƏD CƏMILIN HƏYAT VƏ YARADICILIĞI 3

II. ƏHMƏD CƏMILIN HƏYAT VƏ YARADICILIĞININ ƏSAS TARIXLƏRI 5

III. ƏHMƏD CƏMILİN ƏSƏRLƏRI 6

3.1 KITABLAR **6**

3.2. DÖVRI MƏTBUATDA ÇAP OLUNMUŞ ƏSƏRLƏRİ **6**

3.3 MƏCMUƏLƏRDƏ ÇAP OLUNMUŞ ƏSƏRLƏRİ **7**

IV. HƏYAT VƏ YARADICILIĞI HAQQINDA 8

4.1 KITABLARDA **8**

4.2 DÖVRI MƏTBUATDA ÇAP OLUNMUŞ MƏQALƏLƏR **10**

4.3 RESENZIYALAR **12**

V. ƏHMƏD CƏMILƏ HƏSR OLUNMUŞ ŞEIRLƏR 13

VI. Əhməd Cəmilin tərcümələri 13

I

Əhməd Cəmilin həyat və yaradıcılığı

Mən şair Əhməd Cəmilin çaldığı şeir rübabını dinləyirəm. Bu rübabın tellərindən qopan zərif və mənalı nəğmələr nə qədər dadlı və təbiidir! Bunlar saf dağ çeşmələri kimi şırıl-şırıl axır, ilk baharın gülləri kimi ətir saçır. Bu nəğmələrdə... həqiqi şair qəlbinin çırpıntıları səslənir.... Bu həqiqi ilham deməkdir.

Səməd Vurğun

Müasir Azərbaycan şeirinin görkəmli nümayəndələrindən biri də Əhməd Cəmildir. Əhməd Cəmil bütün ömrünü, taleyini, şüurlu həyatını şeirimizin inkişafına, ideyaca daha da saflaşmasına həsr etmiş şairlərdən biri olmuşdur.

Əhməd Cəmil 1913-cü il oktyabrın 20-də İrəvan quberniyasının İrəvan şəhərində kustarçı ailəsində dogulmuşdur. Dörd yaşında ikən atasını itirmiş, anasının himayəsi altında boya-başa çatmışdır. İbtidai və orta təhsili Gəncə şəhər məktəbində almışdır.
Orta məktəbdə oxuyarkən " Gözəl Qafqaz " adlı ilk şeiri 1928-ci ildə " Qızıl Gəncə " jurnalında dərc olunmuşdur. 1930-cu ildə Əhməd Cəmil Bakı Ali Pedeqoji institutunun ədəbiyyat fakultəsinə qəbul olunmuşdur. Oranı bitirdikdən sonra Şəmkir rayonunun Zəyəm kəndində, sonra Gəncədə orta və ali məktəb müəllimi, metodist işləmişdir.

Gəncədə işlədiyi illərdə o, qəzet və jurnal səhifələrində günün vacib tələblərilə səsləşən mövzularda " Dünyanın gözəlliyi", "1914", " Bu yerlər", " Şübhə", " Partizanın qəbri", " Xatirə", " Yadigar", " Can nənə bir nağıl de" və b. şeirlər yazmışdır.

Böyük Vətən müharibəsi başlayan kimi Əhməd Cəmil bir əlində qələm, bir əlində silah ön cəbhədə döyüşür. O,1942-ci ildə Şimali Qafqaza gəlir. "Hücum" və "Vətən uğrunda irəli" cəbhə qəzetlərində işləyir. Həmin ildə şairin "Yadigar" və "Əsgər qardaşıma" kitabları nəşr olunur. 1943-cü ildə Qafqaz uğrunda döyüşlərdə yaralanan Əhməd Cəmil Bakıya göndərilir. Burada " Ədəbiyyat"qəzetinin məsul katibi, 1944-cü ildə isə Azərbaycan Yazıçılar İttifaqının məsul katibi vəzifəsində çalışır.

Şairin müharibə dövründə yazdığı şeirlər həm bədii kamillik, həm də vətəndaşlıq məzmunu baxımından gözəl poetik nümunələrdir.
" Müharibən sonra və əllinci illərdə şairin " Şeirlər", Təməl daşları", "Qələbə yolları", "Şeirlər", rus dilində A. Adalisin müqəddiməsi ilə "Stixi", Moskvada "İzbranne stixi" kitabları çap olunmuşdur.

Əhməd Cəmilin yaradılığında altmışıncı illər daha uğurlu olmuşdur. Bu illərdə şairin "Əsərlər", " Bahar şəfəqləri", " Seçilmiş əsərləri", həmçinin uşaqlar üçün "Balıqçı gəmiləri", "Ellər bayramı", " Xoşbəxt uşaqlara" və sair kitabları nəşr olunmuşdur. Şair həmçinin müxtəlif illərdə, V.Hüqo, N Nekrasov,T. Şevçenko, İ. Franko, M. Lermantov, A. Tvardovski, K. Simonov, S.Marşak, A.Surkov, A.Adalis, G.Leonidze, Q.Abaşidze, R.Həmzətovun əsərlərindən tərcümələr etmişdir. Ə. Cəmilin tərcüməçilik sahəsində ən məhsuldar işi İ.V.Hötenin "Faust" poemasının tərcüməsi idi. Şair tərcümə zamanı əsərin həm orjinalından, həm də rusca mətnindən istifadə etmişdir.

Əhməd Cəmil 1939-cu ildə " Can nənə, bir nağıl de" şeiri ilə demək olar yaradıcılığının həm forma və üslub yeniliyi ilə, həm də mövzunun müasirliyi baxımından seçilirdi. Məhz buna görə də "Can nənə, bir nağıl de" şeiri müharibə illərində ön cəbhələrdə vuruşan əsgərlərin rəğbətini qazanmışdır.

Əhməd Cəmil bütün yaradıcılığı boyu poema adına bircə nümunə də yazmadı. O, ömrünün sonunacan lirik şeir ustadı kimi tanındı. Əhməd Cəmilin lirikası öz qidasını müasir həyatdan, vətənin gözəlliklərindən, onun zəhmətkeş və qəhrəman övladlarının böyük əməllərindən, alırdı. Şairin lirikasında bitkin fikir və bu fikirin dolğun ifadəsi, sadə, dərin məna işığı ilə nurlanmış bir mətləb vardır.

Əhməd Cəmil poeziyası xalqa, xalq həyatına, insanlığa, insan taleyinə bağlı nikbin poeziyadır, gələcək nəsillərin firavan sabahına inam bu poeziyanın qayəsini təşkil edir.

Mən daim gələcək eşqilə yandım ,
Xoşdur anılsam da, anılmasam da. –

deyən təmənnasız şair həyata da, öz sənətinin taleyinə də inamla yazıb yaratmış, şair vüqarı ilə yaşamışdır.

Əhməd Cəmil 1977- ci ildə sentyabrın 27-də Bakıda vəfat etmişdir.

Əhməd Cəmilin son şeirlərinin birində belə misralar var:

İki mininci ildə,
Gəzəcəkmi sözlərim
Yenə ağızda, dildə?!
İnanıram, bilirəm,
Onda mən olmasam da
Qəlblərdə qalacağam.

Əhməd Cəmil səhv etmirdi- bu inamı onun şeirləri, poetik dünyası yaratmışdı.
Əhməd Cəmil 2000-ci ildə də anıldı, indi də anılır və gələcək illərdə də unudulmayacaq.

II
Əhməd Cəmilin həyat və yaradıcılığının əsas tarixləri

- **1913** İrəvan quberniyasının İrəvan şəhərində anadan olmuşdur.
- **1928** "Qızıl Gəncə" jurnalında ilk şeiri dərc olunmuşdur.
- **1930** Bakıda Ali pedaqoji institutun ədəbiyyat fakultəsində təhsil almışdır.
- **1933- 1936** Şəmkir rayonunun Zəyəm kəndində müəllim işləmişdir.
- **1936-1940** Gəncədə ali məktəb müəllimi, metodist işləmişdir.
- **1939** Azərbaycan Yazıçılar Birliyinin üzvü seçilmişdir.
- **1940** Azərbaycan Sovet Yazıçılar İttifaqında şeir bölməsində məsləhətçi işləmişdir.
- **1940-1942** "Ədəbiyyat qəzeti"ndə ədəbi işçi, məsul katib işləmiş, sonra itifaqın məsul katibi seçilmişdir.
- **1942-1943** İkinci dünya müharibəsi illərində Şimali Qafqaz, Krım cəbhə qəzetləri redaksiyalarında çalışmışdır.
- **1944-1947** Yazıçılar İttifaqı İdarə Heyətinin məsul katibi, həm də idarə heyətinin üzvü secilmişdir.
- **1948** Azərbaycan Sovet Yazıçılar İttifaqında idarə heyətinin məsul katibi olmuşdur.
- **1950** Azərbaycan Yazıçılar İttifaqında məsləhətçi işləmişdir.
- **1950-1970** "Təməl daşları", "Bahar şəfəqləri", "Şeirlər", "Ellər bayramı" kitabları nəşr olunmuşdur.
- **1951** "Ədəbiyyat qəzeti"ndə müvəqqəti redaktor işləmişdir.
- **1953-1955** Azərnəşrdə baş redaktor, redaktor işləmişdir.
- **1956-1959** Azərbaycan Mədəniyyət Nazirliyində məsləhətçi işləmişdir.
- **1959-1960** "Azərbaycan" jurnalının redaktoru olmuşdur.
- **1962-1963** Azərnəşrin baş redaktoru olmuşdur.
- **1964-1967** Uşaqgənc nəşrdə redaktor olmuşdur.
- **1970** Hötenin "Faust" əsəri onun tərcüməsində ayrıca kitab şəklində buraxılmışdır.
- **1973** Qırmızı Əmək Bayrağı ordeni ilə təltif olunmuşdur.
- **1973-1977** "Ulduz" jurnalında baş redaktor işləmişdir.
- **1975** "Seçilmiş əsərləri" çap olunmuşdur.
- **1977** Bakıda vəfat etmişdir.
- **1980** Azərbaycan dövlət mükafatına layiq görülmüşdür.
- **1980- 1990** " Vaxtında gəlmişik bu dünyaya biz", Dünyanın gözəlliyi" , "Əsərləri" kitabları nəşr olunmuşdur.

III

Əhməd Cəmil əsərləri

3.1 Kitabları

1. **Əsərləri.** - B.: Azərnəşr, 1988. - 336 s.
2. **Seçilmiş əsərləir.** - B.: Azərnəşr, 1975. - 366 s.
3. **Seçilmiş əsərləri. -** B.: Gənclik, 1967. - 444 S.
4. **Şeirlər.** - B.: Azərnəşr, 1957. - 230S.

3.2 DÖVRI MƏTBUATDA ÇAP OLUNMUŞ ƏSƏRLƏRİ

5. **Ağ günlərin təməl daşı:** Şeir. // Ədəbiyyat və incəsənət. - 1980. - 4 yanvar. - S.2.
6. **Aprel:** Şeir.// Ədəbiyyat və incəsənət. - 1977. - 23 aprel. - S. 1.
7. **Azadlıq bayraqları heç vaxt əyilməyəcək! ; Qələbə; Bir gün köçəcəyəm mən; Bir iş gəlsə başıma; Ağladın dünən; Bircə o mahnını oxuma; Xatirə olacağam; Mavi göylər; kosa hər yerdə var ; Sənmisən:** Şeirlər. //Azərbaycan. - 1978. - № 8. - S. 124 - 129.
8. **Azərbaycan:** Şeir. // Azərbaycan. - 1986. - № 4. - S. 3.
9. **Biz on beş qardaşıq:** Şeir. // Azərbaycan. - 1972. - № 12. - S. 37.
10. **Çiçəkləyir ağaclar; Qəbələ:** Şeirlər. // Azərbaycan. - 1983. - № 10. - S. 146 -147.
11. **Demə Səməd Vurğun gəldi gedərdi:** [Müəllifin Səməd Vurğunla bağlı xatirələri]. // Azərbaycan. - 1976. - № 9. - S. 97 - 108.
12. **Dostluq nəğməkarı:** [Şair Osman Sarıvəllinin yaradıcılığı haqqında]. //Ədəbiyyat və incəsənət, - 1975. - 29 noyabr. - S. 8- 9.
13. **Əsgər şinelli ədəbiyyat:** [Şair Osman Sarıvəllinin yaradıcılığı haqqında]. //Ədəbiyyat və incəsənət, - 1975, - 9 may, - S. 9.
14. **Göy və ulduzlar:** Şeir/ Müqəddimə var // Ədəbiyyat və incəsənət. -1989. -№ 43. - 27 oktyabr. - S. 6.
15. **Xalqlar dostluğu haqqında poema:** [Şair Məmməd Rahimin “Leninqrad göylərində” adlı poeması haqqında]. // Ədəbiyyat və incəsənət. - 1983, - 18 oktyabr. - S. 8.
16. **Xalqlar dostluğu haqqında poema:** [Şair Məmməd Rahimin “Leninqrad göylərində” adlı poeması haqqında]. // Ədəbiyyat və incəsənət. - 1983. - 18 oktyabr. - S.8.
17. **Xoş gördük, yazı masam!:** Şeir. // ədəbiyyat və incəsənət. - 1972. - 17 iyun. - S.7.

18. Kommunarlar yüz ildir vuruşur yer üzündə: Şeir. // Azərbaycan, - 1971. - № 3. - S.8 - 9.

19. Qardaş elin bayramı: [Gürcüstanda Sovet hakimiyyəti qurulmasının 50 illik yubileyi haqqında]. // Azərbaycan. - 1971. - № 2. - S. 3- 7.

20. Qələbə yolları: Şeir. // Azərbaycan. - № 2. - S. 3.

21. Lirik şeirlər dəftərindən: Şeirlər. // Ədəbiyyat və incəsənət. - 1976. - 30 oktyabr. - S. 3.

22. Məhəbbət nəğməkarı: [Şair Zeynal Xəlil haqqında]. // Ədəbiyyat və incəsənət. - 1973. - 18 avqust. - S. 7.

23. Musa Cəlil: Şeir. // Azərbaycan. - 1975. - № 9. - S. 115.

24. Şeir qanadlı musiqi: [Müəllifin musiqi haqqında fikirləri]. // Ədəbiyyat və incəsənət. - 1973. - 2 iyul. - S. 10.

25. Tez ol, sevgilim, tez ol: Şeir. / Əhməd Cəmil. - Ədəbiyyat və incəsənət, 1985, № 19, 9may, s. 6.

26. Volqa; Şəhərlərin ən gözəli; Mamaykurqanında; Şeirlər. // Azərbaycan, - 1977, - № 1. - S. 73 -79.

3.3 MƏCMUƏLƏRDƏ ÇAP OLUNMUŞ ƏSƏRLƏRİ

27. Analar: Şeir. // Vətənim, anam, dilim. - Sumqayıt, “Zərdabi” nəşriyyat - poliqrafiya MMC, 2004. - S. 134.

28. Anama məktub; Analar: Şeirlər. //Ana! Ana! Ana! - B.: Nurlan, 2006. - S. 36 - 38.

29. Bütün nağıllarda; Ana torpaq; Baltik matrosu: Şeirlər. // Sabir poeziya günləri. 2. - B.: Gənclik. 1976. - S. 13 - 18.

30. Bütün nağıllarda: Şeir. // Sevdiyim şeirlər. 2c - də. C. 2. - B.: Gənclik, 1978. - S. 17.

31. Can nənə, bir nağıl de! ; Vətən; Bizim düşərgə: Şeirlər. // Azərbaycan sovet uşaq ədəbiyyatı antologiyası. (Poeziya). - B.: Gənclik, 1976. - S. 117 - 122.

32. Fəxrimiz, vüqarımız Lenin partiyasıdır: Şeir. // Sən ellər toyusan, ellər bayramı... - B.: Azərnəşr, 1977. - S. 60 -61.

33. Gürcüstan xatirələri: Şeir. // Sevirəm Gürcüstanı. - B.: Azərnəşr. 1977. - S. 34 - 36.

34. Gürcüstan xatirələri; ən fərəhli illəri başlayır ömrümüzün: Yer üzündə bir sevdiyim şəhər var: Şeirlər. // Vətən tərənələri. - B.: Gənclik, 1972. - S. 40- 44.

35. Heykəl: Şeir. //Sabir poeziya günləri. 1 - B.: Gənclik. 1975. - S. 57- 58.

36. Xatirə olacağam: Şeir. // "Azərbaycan" poeziya almanaxı. 1. Şeirlər və Xatirələr. - B.: Yazıçı, 1981. - S. 268 - 269.

37. 26 -lar: Şeir. // Ölməz qəhrəmanlar. - B.: Azərnəşr, 1968. - S. 24- 26.

38. Qaynaqçı qızlar: Şeir. // Adın şərəflidir sənin, ey qadın. - B.: Azərnəşr, 1975. - S. 37 -38.

39. Lenin zirvə: Şeir. // Günəşli günlərin nəğmələri. - B. : Gənclik, 1976. - S. 11 - 13.

40. Mənim azad torpağım; Qayalar:Şeirlər. //Salam, Azərbaycan! - B.:Gənclik, 1970. - S.38- 41.

41. Moskva... noyabr... qırx birinci il ... ; Şeir. //Dünya durduqca.-B.: Azərnəşr, 1977. - S.83 - 84.

42. Şirvan çiçəklərindən: Şeir. // Ölkəm. - B.: Yazıçı, 1980. - S. 63 - 64.

43. Tez ol, sevgilim, tez ol! ; Can nənə, bir nağıl de!; Açıl, ey səhər!; Salam, şanlı diviziyamız!; Məni yada salırmı?: Şeirlər. //Külək qarı səpələr... - B.: "Poeziya günü" nəşrlər evi, 2010. - S. 29 - 36.

44. Tez ol, sevgilim, tez ol!: Çağırış: Can nənə, bir nağıl de!; Açıl, ey səhər! ; Laylay; Nişan üzüyü; Salam, şanlı diviziyamız!; Məni yada salırmı?: Şeirlər. // Alov saçan sətirlər.- B.: Azərnəşr, 1975. - S. 44 - 54.

45. Təməl daşları: Şeir. // Həzin nəğmələrdə yaşayan şəhər. - sumqayıt, "Zərdabi" nəşriyyat - poliqrafiya MMC, 2009. - S. 10 - 11.

46. Vaxtında gəlmişik bu dünyaya biz: Şeirlər. - B.: Yazıçı, 1979. - 297s.

IV

HƏYAT VƏ YARADICILIĞI HAQQINDA

4.1 Kitablarda

47. Abdullayev, A. Azərbaycan sovet poeziyasında lirika v onun fərdi təzahür formaları. Epik - lirik və lirik - romantik üslubi istiqamətlər: [Şair Əhməd Cəmilin yaradıcılığı haqqında].// Abdullayev A. Şairlər və yollar. - B.: Elm, 1984. - S. 48- 59.

48. Ağayev, Ə. Yeni duyğular: [Şair Əhməd Cəmilin yaradıcılığı haqqında]. // Ağayev Ə. Əsrin tərənnümü. - B.: Yazıçı, 1980, - S. 31- 36.

49. Cəmilzadə, S. O, elə ata idi ki ... : [Müəllifin atası şair Əhməd Cəmillə bağlı xatirələri]. // "Azərbaycan" poeziya almanaxı. 1. Şeirlər və xatirələr. - B.: Yazıçı, 1981. - S. 266 - 267.

50. Böyük vətən müharibəsi dövründə ədəbiyyat (1941 - 1945): [Əhməd Cəmil yaradıcılığı müharibə illərində]. // Azərbaycan sovet ədəbiyyatı. - B.: Maarif, 1988. - S. 228 -233.

51. **Müasir dövrdə ədəbiyyat. (1954 - 1966):** [Şair Əhməd Cəmilin poeziyası haqqında]. // Azərbaycan sovet ədəbiyyatı tarixi. 2c-də. C. 2. - B.: Azərbaycan SSR EA - sı Nəşriyyatı, 1967. -S .202 - 203.

52. **Əhməd Cəmil (1913 - 1977):** [Həyatı haqqında]. // Azərbaycan sovet yazıçıları. - B.: Yazıçı, 1987. - S. 236-237.

53. **Nəbiyev, B.** Sadəlik və dərinlik: [Görkəmli şair Əhməd Cəmilin yaradıcılığı haqqında].// Cəmil Ə. Əsərləri. - B.: Azərnəşr, 1988. - S. 3 -18.

54. **Vurğun, S.** Şairin eşqi: [Tanınmış şair Əhməd Cəmilin yaradıcılığı haqqında].// Cəmil Ə. Dünyanın gözəlliyi. - B.:Azərnəşr, 1983, - S. 3 - 6.

55. **Əhməd Cəmil** (**1913 - 1977):** [Şair Əhməd Cəmilin həyat və yaradıcılığı haqqında qısa məlumat]. // Əhmədov T. XX əsr Azərbaycan yazıçıları. - B. : Nurlan Nəşriyyat - poliqrafiya Mərkəzi, 2004. - S. 223.

56. **Əlimirzəyev, X.** Ürəkləri fəth edən şeirlər: [Şair Əhməd Cəmilin "Bahar nəğmələri" adlı şeirlər kitabı haqqında]. // Əlimirzəyev X. Ədəbi qeydlər. - B.: Gənclik, 1975. - S. 87 - 92.

57. **Hacıyev, A.** Zamanın axını ilə. [Şair Əhməd Cəmilin yaradıcılığı haqqında]. // Hacıyev A. Yazıçı şəxsiyyəti və bədii qanuna uyğunluq. - B.: Yazıçı. 1986. - S. 33- 38.

58. **Hüseyn, M.** Mərdlik poeziyası: [Şair Əhməd Cəmilin yaradıcılığı haqqında]. // Hüseyn M. Ədəbiyyat və həyat. - B.: Yazıçı, 1989. - S. 266 - 271.

59. **Qasımzadə, Q.** Şair vüqarı. [Şair Əhməd Cəmil haqqında]. // Qasımzadə Q. Ədəbiyyatımız mənəviyyatımız. Yazıçı. - B.: 1988. - S 265 -272.

60. **Quliyev, N.** Müsəlləh misralar: [Əhməd Cəmil yaradıcılığı haqqında]. // Quliyev N. Vətənpərvərlik və qəhrəmanlıq motivləri. - B.: Yazıçı, 1981. - S. 75 -79.

61. **Quliyev, N.** Müsəlləh əsgərəm mən də bu gündən: [Şair Əhməd Cəmil yaradıcılığında müharibə mövzusu]. // Quliyev N. Böyük Vətən müharibəsi və Azərbaycan sovet poeziyası. - B., 1979. - S. 35- 36; 42 -43.

62. **Əhməd Cəmil (1913 - 1977):** Həyat və yaradıcılığı haqqında. // Müasir Azərbaycan ədəbiyyatı. 2c-də. C. 1. - B.: Bakı Universiteti nəşriyyatı, 2007. - S. 222 - 227.

63. **Nəbiyev, B.** Əhməd Cəmil: [Şair Əhməd Cəmilin yaradıcılığı haqqında]. // Nəbiyev B. Özümüzdən başlayaq. - B.: Elm, 1990. - S. 106 - 125.

64. **Nəbiyev, B.** Lirikanın vüsəti: [Əhməd Cəmil yaradıcılığında müharibə mövzusu]. // Nəbiyev B. Kamalın təntənəsi, - B.: Yazıçı, 1981. - S. 72 - 76.

65. **Nəbiyev, B.** Poema vüsətli şeirlər: [Görkəmli Azərbaycan şairi Əhməd Cəmilin "Seçilmiş əsərləri" haqqında]. // Nəbiyev B. Ədəbi düşüncələr. - B.: Gənclik, 1971. - S. 99 - 104.

66.Orucəli, H. Əhməd Cəmil. [Şairin yaradıcılığı haqqında]. // Orucəli H. Ədəbiyyat və zaman. B.: Azərnəşr. 1971. S. 125 - 133.

67. Rahim M. Əhməd Cəmil lirikası. // Rahim m. Xalqın istəyincə. - B.: Azərnəşr, 1971. - S. 139 - 160.

68.Salmanov, S. Görkəmli şair, vətəndaş: [Əhməd Cəmilin yaradıcılığı haqqında]. // Salamanov S. Poeziya və tənqid. - B.: Yazıçı, 1987. - S. 113 -117.

69. Seyidov, Y. Nədən başlanır vətən? : [Şair Əhməd Cəmilin dili haqqında]. // Seyidov Y. Sözün qüdrəti. - B.: Yazıçı, 1983. - S. 106 - 107.

70. Talıbzadə, K. Fərəh və qəzəb: [Şair Əhməd Cəmil yaradıcılığı haqqında]. // Talıbzadə K. Ədəbi irs və varislər. - B.: Azərnəşr, 1974. - S. 163- 175.

71. Talıbzadə, K. "Saf dağ çeşmələri kimi ...": [Tanınmış şair Əhməd Cəmil haqqında]. // Talıbzadə K. Sənətkarın şəxsiyyəti. - B.: Yazıçı, 1978. - S. 126 - 130.

72. Vurğun, S. Şairin eşqi: [Şair Əhməd Cəmilin yaradıcılığı haqqında]. // Vurğun S. Seçilmiş əsərləri. 5 c-də. C. 5. - b.: Şərq - Qərb. - S. 98 - 101.

4.2 DÖVRI MƏTBUATDA ÇAP OLUNMUŞ MƏQALƏLƏR

73. Fərəcov, S. Zərif hisslər, duyğular şairi: [Şair Əhməd Cəmil haqqında]. //Mədəniyyət. - 2013. - 27 sentyabr. -S. 13.

74.Kərim, Ə. Sevimli nəğmələr: [Şair Əhməd Cəmilin yaradıcılığı haqqında]. //Ədəbiyyat qəzeti. - 2013. - 30 avqust. - S. 4.

75. Sadıqlı, S. "Vurğun könüldən qopan nəğmələr": [Şair Əhməd Cəmilin "Dünyanın gözəlliyi" adlı kitabı haqqında]. // Ədəbiyyat qəzeti. - 2011. - 17 iyun. - S. 5.

76. Elçin. Otuz altı ildən sonra: [Müəllifin Şair Əhməd Cəmillə bağlı xatirələri]. //Ədəbiyyat qəzeti. - 2008. - 18 iyul. - S.3.

77. Hicran. Vaxtında gəlmişdi bu dünyaya .... o: [Şair Əhməd Cəmilin yaradıcılığı haqqında]. //Ulduz. - 2006. - № 12. - s. 49-50.

78.Yusifli, V. Unudulmayacaq...: [Tanınmış şair Əhməd Cəmilin poeziyası haqqında]. //Azərbaycan. - 2003. - № 10. - S. 147-151.

79. Vahidov, T. Dünyanın gözəlliyi: [Şair Əhməd Cəmilin "Dünyanın gözəlliyi" şeri haqqında]. //Вышка. - 2003. - 3 - 9 oktyabr. - S. 10.

80. Kərimova, E. Əhməd Cəmil xasiyyəti. : [Əhməd Cəmil - 90]. //Ədəbiyyat qəzeti. - 2003. - 20 mart. - S. 5.

81. Qabil. Şair Əhməd Cəmil yadıma düşdü: [MÜəllifin şair Əhməd Cəmillə bağlı xatirələri]. //Ədəbiyyat qəzeti. - 1992. - 31 yanvar. - S. 7- 8.

82. Quliyev, R. Yaddaqalan poeziya: [Tanınmış şairimiz Əhməd Cəmilin yaradıcılığı haqqında]. // Kitablar aləmində. - 1989. - № 1. - S. 36-37.

83. Abbaszadə, H. "Portret cizgiləri" ndən. Sənətkar təmkini: [Şair Əhməd Cəmil haqqında xatirələr]. // Azərbaycan. - 1987. - № 6. - S. 137 - 142.

84. Hüseynov, X. Süngüyə çevrilmiş qələm: [Əhməd Cəmil]. - Ulduz, 1985, № 5, - S. 39-41.

85. Hüseynov, X. Mühafizəyə çağırış poeziyası: [Əhməd Cəmil] - Azərbaycan təbiəti, 1984, № 2, - S. 43 - 44.

86. Mahmud, T. Mənim tanıdığım şair: [Şair Əhməd Cəmilin yaradıcılığı haqqında]. //Azərbaycan. - 1983. - № 10, - S. 144 -146.

87. Salmanov, Ş. Görkəmli şair və vətəndaş: [Əhməd Cəmil - 70]. // Ədəbiyyat və incəsənət. - 1983. - 28 oktyabr. - S. 7.

88. Hüseynov, X. Çağlayan bulaq: [Şair Əhməd Cəmilin anadan olmasının 70 illiyi]. - Bakı, 1983, 20 oktyabr.

89. Abdullazadə A. Lirik duyğular nəğməkarı: Əhməd Cəmilin anadan olmasının 70 illiyi. - Kommunist, 1983,- 20 oktyabr.

90. Mahmud,Tofiq. İşıqla. - Əhməd Cəmilin xatirəsinə. - Dərd deyil mənə ... - Çoxdan görməsəmdə mən...Şeirlər. - "Ədəbiyyat və incəsənət", 1978, № 34, 19 avqust. S. 4.

91. Əhməd Cəmil [Şair 1913 - 1977. Nekroloq]. // Ədəbiyyat və incəsənət. - 1977. - 1 oktyabr. - S .4.

92. İbrahim, V. Sevimli müəllimimiz: [Şair Əhməd Cəmil haqqında]. // Ədəbiyyat və incəsənət, - 1977, - 1 oktyabr. - S. 4.

93. Mir Cəlal. Əsərlərində yaşayacaq: [Şair Əhməd Cəmil haqqında].// Ədəbiyyat və incəsənət, - 1977, - 1 oktyabr. - S. 4.

94. Novruz, C. Şeirlərinin uzunömürlülüyünə inana - inana: [Şair Əhməd Cəmil haqqında]. //Ədəbiyyat və incəsənət, - 1977. - 1 oktyabr. - S. 4.

95. Rüstəm, S. Ölüm sözü sənə yaddır: [Şair Əhməd Cəmil haqqında]. // Ədəbiyyat və incəsənət. - 1977. - 1 oktyabr. - S. 4.

96. Rzaquluzadə, M. Vətəndaş - şair: [Şair Əhməd Cəmil haqqında]. // Ədəbiyyat və incəsənət, - 1977. - 1 oktyabr. - S. 4.

97. Hacıyev, A. Zamanın axını ilə. [Şair Əhməd Cəmilin yeni əsərləri haqqında]. - "Kommunist", KLS, 2 iyul.

98. Bayram, T. Şairin seçilmiş əsərləri: [Şair Əhməd Cəmilin "Seçilmiş əsərləri" adlı şeirlər kitabı haqqında]. // Ədəbiyyat və incəsənət. - 1975. - 7 iyun. - S. 7.

99. Yazıçı Əhməd Cəmilin (Əhməd Səttar oğlu Cəmilzadənin) Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilməsi haqqında SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı. // Ədəbiyyat və incəsənət. - 1973. - 27 oktyabr. - S. 4.

100. Asalov, A. "Xalqımıza o qədər borcluyuk ki ...": [Məqaləyə Əhməd Cəmilin Səməd Vurğunla bağlı xatirələri daxil edilmişdir].//Ədəbiyyat və incəsənət. - 1973. - 27 oktyabr.- S.4.

101. Ələsgərov, S. ... Biz də çələng bağlayaq: [Şair Əhməd Cəmil haqqında]. // Ədəbiyyat və incəsənət. - 1973. - 27 oktyabr. - S. 5.

102. Kürçaylı, Ə. O, poeziya üçün doğulub: [Şair Əhməd Cəmilin poeziyası haqqında]. // Ədəbiyyat və incəsənət. - 1973. - 27 oktyabr. - S. 5.

103. Nəbiyev, B. Pozulmaz naxışlar: [Şair Əhməd Cəmil haqqında]. // Ədəbiyyat və incəsənət. - 1973, - 27 oktyabr. - S. 4.

104. Nazim, Hikmət. Əhməd Cəmilin poeziyası haqqında. // Ədəbiyyat və incəsənət. - 1973. - 27 oktyabr. - S. 4.

105. Abdullazadə, A. Əhməd Cəmil şeiri: [Şair Əhməd Cəmilin poeziyası haqqında]. // Ədəbiyyat və incəsənət. - 1970. - 12 dekabr. - S. 11.

4.3 RESENZIYALAR

106. Əsərləri. - B.: Azərnəşr, 1988.
Res.: T. Mütəllibov Yadigar nəğmələr. // Ədəbiyyat və incəsənət. - 1988. - 24 iyun. - S. 6.

107. Dünyanın gözəlliyi: Şeirlər. - B.: Azərnəşr. 1983 .
Res.: Quliyev R. Zərif nəğmələr. - Ədəbiyyat və incəsənət, 1984, № 38, 21 sent., s. 6.

108. Can nənə, bir nağıl de! : Şeirlər. - Bakı: Gənclik, 1986.
Res.: Quliyev R. Şer var ki... // Kitablar aləmində. - 1987. № 4. - s. 27-28.

109. Vaxtında gəlmişik bu dünyaya biz: Şeirlər. - B.: Yazıçı, 1979.
Res.: K. Nemət. Arzularında yaşadacaq. // Ədəbiyyat və incəsənət. - 1980. - 1 fevral. - S. 6.

V
ƏHMƏD CƏMILƏ HƏSR OLUNMUŞ ŞEIRLƏR

110. Əlibəyli, B. Nağıl; Şeir Əhməd Cəmilə həsr olunub. // Azərbaycan. - 2004. - № 11, - S. 89.

111. Süleyman, Rüstəm Yenə varsan: Şeir Ə. Cəmilə həsr olunub.// Ədəbiyyat və incəsənət. - 1977. - 1 oktyabr. - S. 4.

112. Mahmud, Tofiq. Əhməd Cəmilin xatirəsinə: Şeir. // ədəbiyyat və incəsənət. - 1978. - 19 avqust. - S. 5.

VI

ƏHMƏD CƏMILIN TƏRCÜMƏLƏRI

113. Vikulov S. Çay qırağıda: Şeir // Ədəbiyyat və incəsənət. - 1972. - 30 sentyabr. - S. 5.